# Nədən Federasyon?

Danimarkada  kiçiklı-böyüklü, üzvü az olan vəya çox olan bir xeyli mədənı cəmiyyət faaliyyət aparır. Amma əfsus kı, cəmiyyətlərin birbirindən xəbərləri yoxdur. Hansı sahələrdə faaliyyət aparırlar vəya nə kimi mədəni aranjmanlar tərtib edirlər gənə də kimsənin xəbəri olmur.

Hər kəsə yaxşı məlumdur ki, danimarkada bir çox (güneylı-quzeylı) azərbaycanlı yaşayir. Gənə də hər kəsə məlumdur kı, Azərbaycan kültürü başqa millətərlə muqasyisədə, olduqca az təbliğ olunub. Təbliğ olanlar isə məhdud və ötəridir. Özünü təblıģ etmək hər bir millətin ən təbii həqqidir. Ona görə biz Azərbaycanlı mədəni faallara vəzifədir kı, millətimizin külütürünü təbliğ etməklə millətimizin varolduğunu təsdiq edək.

Necə kı, gecənı gündüzdən və gündüzü gəcədən ayirmaq olmaz, elə ona görə də Azerbaycancan mədəniyyəti bir bütövdür. Onu quzeysiz və güneysiz təsəvvur etmək mümkün deyil. Hər iki tərəfin kültürü biz Azerbaijanlılar üçün əzizdir. Bəs bu kültürü təbliğ etmək həm də layiqincə təbliğ etmək hər qərib Azərbaycanlının boyun borcudur.

Azərbaycan mədəniyyətini tanıtdırmaq üçün şüphəsiz kı, bir çox qabliyyyətlı faal insanlarımız var. Onlar canı-deldən kültürləri üçün nəsə bir işlər görmək istirlər. Bəs bu insanları və onlarin qabliyyətlərini azərybaycan kültürünün təbliğatı və tanitimi üçün necə səfərbər etmək olar?: Bu suvalın cavabı ancaq mutəşəkkil mədənı cəmiyyətlərdir. Və eləcə də bu cəmiyyətləri birləşdirən federasyondur. Nəyə görə federasyona ehtiyac vardır? Daha doğrusu, danimarkada movcud olan Azəri cəmiyyətlərin federasyona ehtiyacı nə səbəblərdən doğubdur?

**Bəs Danimarka da faaliyyət edən Azərbaycan Cəmiyyətlərinin ona görə federasyona ehtiyacları var kı:**

1. Danimarkada movcud olan mədənı cəmiyyətlər birbirindən xəbərləri yoxdur.
2. Birbirinin faaliyyətətləri ilə tanış deyillər.
3. Cəmiyyətlərin birbirinə köməyi çatmır.
4. Müştərək tədbirlər təşkil edəbilmirlər.
5. Birbirinin qabliyyət və faaliyyət təcrubələrindən istifadə aparabilmirlər.

Nəticətən Azəri Cəmiyyətlərin təşəkkülü üçün Federasyonun yaranması bir çox cəhətdən zəruri və faydalıdır. Federasyon yaranan zaman aşağıdakı **nailiyyət və başarıları** əldə eldə etmək mümkün olacaqdır:

1. Cəmiyyətlər birbirilə dəvamlı irtibatda olacaq.
2. Birbirinin faaliyyətləri ilə həmişə tanış olacaq.
3. Birbirinin faaliyyət təcrubələrindən istifadə edəbiləcək.
4. Birbirinin imkan və ehtimalən üzləşdiyi problemləri öyrənmiş olacaq.
5. Birbirinin imkanlarindan istifadə edəbiləcək.
6. Cəmiyyətlər həm öz lokalında və həm də müştərək mədəni tədbirlər qurmağa bollu imkanlar tapacaq.
7. Keyfiyyətlı tədbirlər təşkil edəcək.
8. Pasiv olan cəmiyyətlər federasyona üzv olmaq vasitəsilə akiv olacaqlar.
9. Mədənı cəmiyyətlərdən təşkil tapan federasyonun ortaq websitəsı olacaq.
10. Ciddi sponsorlar tapmaq üçün Federasyon böyük və əlverişlı imkan olacaq.
11. Və ən əsası isə federasyon çətrı altında birləşən mədənı cəmiyyətlərin imkanları və faaliyyyət sahələri genişlənəcək və gücləri artacaqdır.

## *Kiçik sözlük*

Mətində işlədilən bəzi açar sözlərin tərifi.

**Mədənı faaliyyət**
Bir millətin müştərək kültür, rəsm və rusumlarini təbliğ edən və tanıdan faaliyyət proseslərinə mədənı faaliyyət deyilir.

**Mədəni cəmiyyət**
Könüllü şəxslərdən ibarət olan və muəyyən mədəni faaliyyyətlər aparan topluma mədənı cəmiyyət deyilir

**Federasyon**
Federasyon bir üst-cəmiyyət deməkdır. Federasyona üzv olan mədənı cəmiyyətlər öz müstəqilliklərini qoruyarlar.

**Diaspora**
Diaspora bizim dildə qərib deməkdır. Öz vətənindən kənarda yaşiyan bir millətin övladlarına diaspora (qərib) deyilir.